


# Sumqayıt seçiciləri inkişafımızın davamlılığına səs verəcəklər









11 apreldə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən namizədliyi irəli sürülmüş cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası uğurla davam edir. Dünən YAP Sumqayıt şəhər təşkilatı kampaniya çərçivəsində seçicilərlə növbəti görüş keçirib. Görüşü giriş sözü ilə açan YAP Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov bildirib ki, cənab İlham Əliyev ölkəmizin alternativsiz lideridir: **"Prezident İlham Əliyev Azərbaycanı qabaqcıl dünya ölkələrindən birinə çevirib. Ona bu işdə dəstək olmaq üçün hər bir azərbaycanlı 11 apreldə seçki məntəqələrinə gedərək cənab İlham Əliyevin növbəti müddətdə ölkəmizə rəhbərlik etməsi üçün səs verməlidir".**

Çıxış edən Milli Məclisin deputatı Tahir Mirkişili əsası Ulu öndər tərəfindən qoyulmuş və bu gün cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasi kursun ölkəmizin inkişafındakı rolundan danışıb. T.Mirkişili qeyd edib ki, son illər Azərbaycan iqtisadiyyatının yüksək sürətlə inkişafı təmin edilib: **"Bu gün qürur hissi ilə deyə bilərik ki, Azərbaycanda aparılan iqtisadi islahatlar nəticəsində istənilən sahədə, iqtisadi və sosial məsələlərin həllində gözəl nailiyyətlərimiz var. Keçirilən görüşlərdəki yüksək əhval-ruhiyyə onu göstərir ki, ictimai-siyasi proseslərdə daim fəallıq göstərən vətəndaşlarımız bu seçkilərdə də yaxından iştirak edəcəklər, Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verəcəklər".**

Tədbirdə çıxış edən YAP Sumqayıt şəhər təşkilatının seçki qərargahının üzvləri Eldar İsmayılov, Vəzirxan Ənsərov və başqaları bildiriblər ki, Sumqayıt seçiciləri hər zaman Ulu öndər Heydər Əliyev siyasi kursuna sadiqdirlər və seçki günü bütün seçicilərimiz cənab İlham Əliyevə səs verəcəklər.

# Yeni Azərbaycan Partiyasının Şəmkir rayon təşkilatı seçicilərlə görüşlərini davam etdirir

*Prezident seçkiləri ilə əlaqədar növbəti görüşlər rayonun Kür qəsəbəsi və İsgəndərli kəndində keçirilib*






2018-ci ilin 11 aprel tarixində Azərbaycanda çox əhəmiyyətli siyasi kampaniya - prezident seçkiləri keçiriləcək. Yeni Azərbaycan Partiyasının (YAP) tədbirlər planına uyğun olaraq bütün yerli strukturlar bu kampaniyanı uğurla həyata keçirir. Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəmkir rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvlərinin seçicilərlə növbəti görüşü martın 23-də Şəmkir rayonunun Kür qəsəbəsində olub. Tədbirdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahı Şəmkir rayon şöbəsinin və YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev bildirib ki, Azərbaycan dövləti aprelin 11-də keçiriləcək prezident seçkilərinin beynəlxalq standartlara uyğun demokratik keçirilməsi üçün lazımi şəraiti yaradıb.

F.Vəliyev qeyd edib ki, artıq martın 19-dan etibarən təbliğat-təşviqat kampaniyasına start verilib və partiyamızın bu günə kimi seçicilərlə keçirilən görüşləri onu deməyə əsas verir ki, 11 apreldə xalqımız hamılıqla prezidentliyə namizəd cənab İlham Əliyevə səs verəcək.

Sonra çıxış edən YAP Şəmkir rayon təşkilatının şura üzvləri Misir Yusifov, Yusif Mehtiyev və digərləri vurğulayıblar ki, cənab İlham Əliyev Azərbaycan xalqının alternativsiz lideridir. Natiqlər şəmkirliləri cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Prezident seçkiləri ilə əlaqədar növbəti görüş isə rayonun İsgəndərli kəndində baş tutub. YAP Şəmkir rayon təşkilatı seçki qərargahının sədri Fəxrəddin Vəliyev Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə son 15 il ərzində ölkəmizdə həyata keçirilən uğurlu islahatlardan və o islahatların nəticəsi olaraq əldə olunan çoxsaylı nailiyyətlərdən geniş bəhs edib.

Görüşdə çıxış edən Milli Məclisin deputatı Kamran Bayramov son on beş ildə Prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasət nəticəsində beynəlxalq aləmdə ölkəmizin mövqelərinin kifayət qədər möhkəmlənməsindən, həyata keçirilən irimiqyaslı infrastruktur layihələrindən, ölkəmizin beynəlxalq miqyaslı tədbirlərə uğurla ev sahibliyi etməsindən, regionların sosial-iqtisadi inkişaf proqramlarının reallaşmasından danışıb.



# YAP Samux rayon təşkilatında müşahidəçilər üçün treninq keçirilib

Yeni Azərbaycan Partiyası (YAP) Samux rayon təşkilatında 11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkiləri ilə əlaqədar səsvermə günü müşahidə aparacaq müşahidəçilər üçün treninq keçirilib.

YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov seçki məntəqələrinə təyin edilmiş müşahidəçilərin vəzifələri barədə ətraflı məlumat verib. Daha sonra treninq diskussiya şəklində davam etdirilib. Hər bir müşahidəçiyə "Müşahidəçilər üçün yaddaş" kitabçası paylanıb və onları maraqlandıran suallar cavablandırılıb.

# Ağcabədidə təbliğat-təşviqat kampaniyası uğurla davam edir

*Rayonun Yeni Qaradolaq kəndində seçicilərlə görüş keçirilib*





Yeni Azərbaycan Partiyasının (YAP) prezidentliyə namizədi cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Ağcabədi rayonunda seçicilərlə görüşlər davam edir. Növbəti belə görüş dünən rayonun Yeni Qaradolaq kəndində keçirilib.

Görüşü giriş sözü ilə açan YAP Ağcabədi rayon təşkilatının sədr müavini Nazim Bünyatov seçicilərə partiyamızın namizədi cənab İlham Əliyevin zəngin həyat yolundan, Onun Azərbaycan dövlətçiliyi üçün həyata keçirdiyi misilsiz işlərdən, həmçinin rayonda görülən quruculuq işlərindən danışıb.

Onun sözlərinə görə, ötən 15 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən siyasətin müsbət nəticələri hər bir vətəndaşın, o cümlədən ağcabədililərin həyatında hiss edilir: **"Məhz buna görə də əminliklə qeyd edə bilərəm ki, ağcabədili seçicilər aprelin 11-də cənab İlham Əliyevə səs verəcəklər".**

Görüşdə həmçinin Yeni Azərbaycan Partiyası Ağcabədi rayon təşkilatının təbliğatçıları, rayon Ağsaqqallar Şurasının sədri Əlizadə Nəcəfov, YAP Ağcabədi rayon təşkilatının Şura üzvü İbrahim Həsənov, YAP Ağcabədi rayon təşkilatı Qadınlar Şurasının sədri Radə Qafarova çıxış edərək bildiriblər ki, dövlətçiliyə sadiq ağcabədililərin yalnız bir seçimi var - Ulu öndər Heydər Əliyev siyasətinin davamçısı cənab İlham Əliyev.

Öz növbəsində çıxış edən kənd sakinləri - Bayram İsmayılov, Leyla Əliyeva, Hacı Hacıyev və başqaları deyiblər ki, ölkəmiz gündən-günə inkişaf edir, insanlarımızın rifah halı yüksəlir. Ağcabədililər də rayonda görülən işləri yüksək qiymətləndirir və bu işlərin davamlı olmasını istəyirlər. Ona görə də rayon seçiciləri aprelin 11-də cənab İlham Əliyevə səs verəcəklər.

# Qarabağ veteranları Azərbaycanı uğurlu gələcəyə aparan cənab İlham Əliyevi yekdilliklə dəstəkləyirlər



11 aprel prezident seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyası çərçivəsində Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Səbail rayon şöbəsinin qərargahında Səbail rayonu ərazisində yaşayan Qarabağ müharibəsi veteranları, onların ailə üzvləri, müharibə əlilləri və şəhid ailələri ilə görüş keçirilib.

Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin və partiyanın rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev Yeni Azərbaycan Partiyasının Sədri və prezidentliyə namizədi, ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə Azərbaycanın qazandığı möhtəşəm tarixi nailiyyətlər, ölkəmizdə həyata keçirilən genişmiqyaslı və çoxşaxəli işlər, eləcə də qarşıda duran strateji hədəf və məqsədlər haqqında ətraflı məlumat verib.

Ş.Hacıyev vurğulayıb ki, bu gün ölkəmizdə Heydər Əliyev siyasəti yaşayır və möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanı gələcəkdə daha da möhtəşəm uğurlar gözləyir. Azərbaycanın işıqlı, uğurlu və etibarlı gələcəyi üçün biz səsimizi yekdilliklə cənab İlham Əliyevə veririk!

Sonra 11 aprel prezident seçkilərində müşahidəçi kimi iştirak edəcək Səbail rayonu sakinləri olan Qarabağ müharibəsi veteranlarına müşahidəçi vəsiqələri təqdim olunub.

Tədbirdə həmçinin Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyinin sədri Füzuli Rzaquliyev, "Ehtiyatda olan Zabitlərin Konfederasiyası" Birliyinin Səbail rayon şöbəsinin sədri ehtiyatda olan polkovnik Xətai Baxışov, müharibə veteranları Qalaqanov Yuriy Qriqoryeviç, Rövşən Cavadov, İradə Sadıqova, Altay Əliyev, aprel döyüşləri iştirakçısı Vəli Qasımov və YAP Səbail rayon təşkilatının İdarə Heyətinin üzvü Hacan Hacıyev çıxış ediblər.

Çıxışçılar Azərbaycanda bu uğurlu inkişafı görən və möhtəşəm nailiyyətlərin davam etməsini arzulayan hər kəsi yekdilliklə cənab İlham Əliyevə səs verməyə çağırıblar.

# YAP Nizami rayon təşkilatının gəncləri "Koroğlu" və "Q.Qarayev" metrostansiyalarının qarşısında "İlhamla irəli" təşviqat aksiyası keçiriblər





Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Seçki Qərargahının şəhər və rayon şöbələri prezident seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirirlər. Partiyanın Sədri, Azərbaycan Respublikası Prezidentliyinə namizəd İlham Əliyevin seçki kampaniyası çərçivəsində növbəti tədbir Nizami rayonunda baş tutub.

YAP Nizami rayon təşkilatının gəncləri insanların gediş-gəlişinin çoxluq təşkil etdiyi "Koroğlu" və "Q.Qarayev" metrostansiyalarının qarşısında "İlhamla irəli" təşviqat aksiyası keçiriblər.

Gənclər cənab İlham Əliyevin seçki kampaniyası üçün YAP Mərkəzi Seçki Qərargahı tərəfindən hazırlanmış seçki proqramı və bukletləri insanlara paylayıblar. Eyni zamanda, gənclər cənab İlham Əliyevin rəhbərliyi ilə son 15 il ərzində Azərbaycanda əldə olunan uğurlar və perspektiv və hesablanmış hədəflər haqqında ətraflı izahat işləri aparıblar.

Gənclər seçicilərin diqqətinə çatdırıblar ki, son 15 il ərzində Azərbaycanın əldə etdiyi uğurların əsasında bütün faktorlardan öncə sabitlik və təhlükəsizlik amili durur. Azərbaycanda əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş xalq-iqtidar birliyi bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmlənib. Məhz xalqın Prezident İlham Əliyevə inamı və etibarı son 15 il ərzində Azərbaycanın tarixi əhəmiyyətli uğurlar əldə etməsinə əsas yaradıb.

Platforma və bukletlə tanış olan insanlar, seçicilər də öz səmimi münasibətləri ilə cənab İlham Əliyevə olan etimadını və dəstəyini nümayiş etdiriblər. Aksiyanın yekun nəticəsi olaraq bu fikir hasil olub ki, 11 aprel 2018-ci ildə Azərbaycan xalqının seçimi cənab İlham Əliyev olacaq.